# Paşinyan sülhsevər olduğunu sözdə yox, əməldə göstərməlidir

## Onun kommunikasiyalarla bağlı təklifi diqqəti sülhdən yayındırmağa xidmət edir

**"Dünya ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması, beynəlxalq təşkilatlarla səmərəli əlaqələrin yaradılması, yeni tərəfdaşların tapılması və yüksəksəviyyəli əməkdaşlığın həyata keçirilməsi, mehriban qonşuluq siyasətinin formalaşdırılması, beynəlxalq ədalətin təmin olunması Azərbaycanın yürütdüyü xarici siyasətin əsas istiqamətləridir. 2020-ci ildəki İkinci Qarabağ müharibəsində əldə olunan zəfərdən və 2023-cü ildəki birgünlük antiterror əməliyyatlarından sonra Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsi, Cənubi Qafqazda separatçılığa son qoyması nəticəsində regionda tamamilə yeni reallıq yaranıb".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, yeni siyasi qaydaların müəllifi Bakıdır. Bu reallıq regionda sülh və sabitliyin, habelə qarşılıqlı əməkdaşlıq mühitinin təmin olunmasını şərtləndirir. Azərbaycan bunun üçün öhdəsinə düşənləri edir. Müharibədən dərhal sonra sülh təşəbbüsü ilə çıxış etməsi, rəsmi Bakının humanistliyinin ən ciddi təzahürlərindəndir. Ancaq bu gün Ermənistanın sülh prosesindən yayınaraq, kommunikasiyaların açılması ilə bağlı təkliflər irəli sürməsinin əsas məqsədi Azərbaycanla yeni diplomatik və siyasi müstəvidə əməkdaşlıq yaratmaqdan daha çox, beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək və guya Azərbaycanın sülhdən yayındığı görüntüsünü yaratmaqdır. Belə bir taktika seçmək Ermənistanın beynəlxalq ictimaiyyət qarşısında konstruktiv tərəf kimi görünməsinə, Azərbaycanın isə sülh prosesində maneə törədən tərəf kimi təqdim edilməsinə xidmət göstərir. Bu cür yanaşma sülh prosesinin irəliləməsinə mane olur və regionda davamlı sülhün əldə edilməsini çətinləşdirir.

K.Bayramov qeyd edib ki, Ermənistanın sülh prosesindəki cəhdləri heç bir halda sülhə zəmin yaratmır, əksinə, yalnız manipulyasiya etmək məqsədini daşıyır: "Azərbaycanın sülh sazişi ilə bağlı əsas şərtlərindən biri məhz lazımsız quruma çevrilən Minsk qrupunun ləğvidir. Ermənistan hakimiyyəti son zamanlar bu məsələ ilə bağlı pozitiv mesajlar verir, amma müxalifət prosesə mane olur. Bu, belə düşünməyə əsas verir ki, Ermənistanda Azərbaycanla münasibətlərin normallaşmasına mane olan güclər heç də az deyil. Belə olan halda Paşinyan Azərbaycanı ittiham etmək əvəzinə onlarla mübarizə aparmalıdır. Daxildəki müxalifətlə yanaşı, xarici oyunçular da rəsmi İrəvanın konstruktiv mövqeyinə mane olurlar. Ermənistan isə hələ də onların nağıllarına qulaq asmaqda davam edir", - deyə o əlavə edib.

Deputat bildirib ki, Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının xüsusilə son zamanlar artan təxribatçı fəaliyyəti, o cümlədən müntəzəm olaraq açıq-aydın Azərbaycan ərazilərini müşahidə etməsi, eyni zamanda fevralın 25-də Aİ-Ermənistan parlamentlərarası komitə tərəfindən birgə bəyanat imzalanması Ermənistanın ölkəmizə münasibətinin göstəricisidir. Belə ki, anti-Azərbaycan fikirlərin də əks olunduğu sənədi imzalayanlar arasında Paşinyanın partiyasından olan siyasətçilər də var idi. Bu, Ermənistanın, əslində, səmimi deyil, sadəcə vaxt qazanmağa və özünü "sülh göyərçin"i kimi təqdim etməyə çalışmasını bir daha açıq-aydın göstərir. Nikol Paşinyan və onun komanda üzvləri üzdə sülhdən danışsalar da, realda yürütdükləri siyasətləri ilə bunun əksini həyata keçirirlər.

K.Bayramov bildirib ki, əgər rəsmi İrəvan həqiqətən, sülh sazişində səmimidirsə, bu kimi hallar olmamalıdır, çünki sülh sazişi ilə bağlı Azərbaycanın konkret şərti var. Bu, Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən Ermənistanın mövcud konstitusiyasına dəyişiklik edilməsi, 10 noyabr üçtərəfli Bəyanatın şərtlərinin tam yerinə yetirilməsi və ATƏT-in Minsk qrupunun ləğvidir. İrəvan sülh istəyirsə, bu tələbləri yerinə yetirməlidir. Əks halda uydurduğu bütün bəhanə və iddialar məqbul deyil.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 11 mart (№ 53).- S.7.